Zəfər tarixinin xronikası : 21 oktyabr 2020-ci il // Xalq qəzeti. - 2021. - 21 oktyabr. - № 227. - S. 6.

Həmin gün:
– Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib: "Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Bələnd, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!";
– Prezident İlham Əliyev "Twitter" səhifəsində yayımlanan digər bir paylaşımda diqqətə çatdırıb: "Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!";
– Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib;
– Xarici İşlər naziri Ceyhun Bayramovun Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Nazirlər Qarabağda son döyüş vəziyyəti ətrafında fikir mübadiləsi aparıblar;
– Prezidentin köməkçisi - Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev: Ermənistanın münaqişənin danışıqlar yolu ilə həlli barədə açıqlamalarının riyakarlıqdan başqa bir şey olmadığı bir daha öz təsdiqini tapır;
– Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi açıqlama yayıb. Açlqlamada deyilir: "Ermənistan rəhbərliyi məsuliyyətsiz bəyanatları və əməlləri ilə öz xalqını uçuruma sürükləyir";
– Azərbaycanın Baş prokuroru Kamran Əliyev Ombudsman Səbinə Əliyevanın dəvəti əsasında ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının prezidenti və Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç ilə görüşüb.
***
Müdafiə Nazirliyi cəbhədə son vəziyyətə dair məlumat yayıb:
– oktyabrın 20-si gün ərzində və 21-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub;
– ordumuzun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnika baxımından itki verərək geri çəkilməyə məcbur edilib;
– 5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilib, çoxlu sayda silah və sursat qənimət götürülüb. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edilib;
– 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var;

– döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılıb;
– qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir;
– Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər mülki obyektlərdə yanğınlar törədib;
– Ermənistana məxsus daha üç PUA məhv edilib.
***
Beynəlxalq mətbuatında Ermənistanın işğalçı siyasətini pisləyən materialların verilməsi davam etdirilir:
– Qətərin "Əl-Raya" qəzeti: "Ermənistan ordusu humanitar atəşkəsi pozaraq Gəncə şəhərini raket atəşinə məruz qoyub";
– İsrailin nüfuzlu ivritdilli "Israel HaYom" qəzetində "Dağlıq Qarabağ: Azərbaycan ordusu hücuma keçir – ermənilər geri çəkilir" sərlövhəli məqalədə tanınmış israilli jurnalist Neta Bar yazıb: "Bu müharibədə yeni rekord vurulub, belə ki, Azərbaycan Ordusu Qarabağdan cənuba, İran sərhədi boyunca müdafiə xətlərini yarıb və şimala, Xankəndi şəhəri istiqamətində irəliləməyə real şəkildə nail olub";
– Ərəb aləmində geniş oxucu auditoriyasına malik "Ərəbi21" saytında "Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında 27 ildən sonra azan verilib" sərlövhəli məqalə dərc edib;
– Almaniyanın "Deutsche Welle" telekanalında "Dağlıq Qarabağ münaqişəsi: Gəncədəki matəm və qəzəb" adı ilə reportaj yayımlanıb.
– Rusiyanın nüfuzlu "News.ru" portalında dərc olunan məqalədə deyilir: "Erməni tərəfi Qarabağda baş verənləri müsəlman və xristian dünyasının qarşıdurması kimi təqdim etməyə cəhd göstərir, lakin hadisələrin bu cür stereotip mənzərəsi əsla ağlabatan deyil".
***
Azərbaycanın Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 21-i saat 11:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.
Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 63 nəfər həlak olub, 292 nəfər isə xəsarət alıb. Həmçinin Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1981 ev, 90 çoxmənzilli yaşayış binası və 386 mülki obyekt yararsız vəziyyətə düşüb.
Məlumatda, həmçinin qeyd edilib ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.